ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# Ali və orta ixtisas təhsili müəssisələrində distant təhsildə öyrənmə nəticələrinin araşdırılması ilə bağlı aparılmış müsahibələrin nəticələrinə dair

## H E S A B A T

Hazırladı: Könül Abaslı, Leyla Sultanlı

Bakı - 2021

# MÜNDƏRİCAT

XÜLASƏ ........................................ 3
GİRİŞ ........................................ 4
METODOLOGİYA ........................................ 6
Metod ........................................ 6
İştirakçılar ........................................ 6
Məlumat toplama prosesi və məlumatların toplanılması ........................................ 9
Məlumatların təhlili ........................................ 10
NƏTİCƏ ........................................ 10
TÖVSİYƏLƏR ........................................ 17
İSTİNAD OLUNMUŞ MƏNBƏLƏRİN SİYAHISI ........................................ 19
ƏLAVƏ 1. MÜSAHİBƏ FORMASI ........................................ 20

# XÜLASƏ

Bu araşdırmanın məqsədi pandemiya şəraitində ölkədəki orta ixtisas və ali təhsil müəssisələrinin məsafədən təhsilin təşkili təcrübəsini öyrənməkdir. Bu çərçivədə 2020-2021-ci tədris ilinin ikinci yarımilində ümumilikdə 21 təhsil müəssisəsində məsafədən təhsilin təşkilindən məsul nümayəndələr ilə müsahibələr təşkil edilmişdir. Belə ki, 14 ali təhsil müəssisəsinin və 7 orta ixtisas müəssisəsinin nümayəndəsi ilə görüşlər keçirilmişdir. Görüşlər "Zoom" platforması üzərindən təşkil edilmiş və orta hesabla 45 dəqiqə davam etmişdir.

Pandemiya dövründə ölkədəki orta ixtisas və ali təhsil müəssisələrində məsafədən təhsilin təşkili təcrübəsini öyrənmək məqsədilə təhsil ekspertləri tərəfindən yerli və beynəlxalq təcrübə nəzərə alınaraq müsahibə sualları formalaşdırılmış və iyun ayında müsahibələr təşkil olunmuşdur.

Müsahibələr əsasında əldə olunan məlumatların sonrakı mərhələdə emalı həyata keçirilmişdir. Belə ki, ilk olaraq məlumatlar deşifr edilmiş, daha sonra mövzular və kateqoriyalar üzrə qruplaşdırılmışdır. Nəticələr cədvəl və qrafiklərlə vizuallaşdırılmış və şərhlər əlavə edilmişdir.

Məlumatların təhlili göstərir ki, istər ali təhsil müəssisələrinin, istərsə də orta ixtisas təhsili müəssisələrinin əksəriyyəti pandemiya başladığı zaman bu cür fövqəltəbii vəziyyətə hazır olmadıqları üçün ilkin mərhələdə prosesi idarə etməkdə çətinliklərlə üzləşmişdirlər. Araşdırma nəticəsində proses ərzində ən çox rast gəlinən problem internetə çıxışla bağlı olmuşdur. Əlavə olaraq II Qarabağ müharibəsi zamanı ölkə ərazisində internetlə bağlı müəyyən məhdudiyyətlərin olması müvafiq problemin miqyasının artmasına səbəb olmuşdur. Xüsusilə cəbhəyanı bölgələrdə bu durum daha çox müşahidə olunmuşdur.

İnternet problemindən əlavə təhsil müəssisələrində akademik heyətin rəqəmsal bacarıqlarının qənaətbəxş olmaması, təhsilverənlərin prosesə texniki və psixoloji olaraq adaptasiyasiya ola bilməməsi və tələbələrin maddi səbəblərdən internetə çıxış imkanlarında məhdudiyyətlərin olması müşahidə olunan əsas problemlərdəndir. Araşdırma nəticəsində təhsil müəssisələrinin yaşadıqları problemlərin bəzilərini mümkün dərəcədə təlimlər, videotəlimatlar və fərdi köməklik kimi alətlərdən istifadə edərək həll etməyə çalışdıqları görünmüşdür.

Pandemiyanın başlandığı ilk dövrlərdəki vəziyyət ilə cari vəziyyətin müqayisəsi ilə bağlı ünvanlanan suala verilən cavabların təhlilində 21 təhsil müəssisəsinin məsul əməkdaşlarının hər biri ötən dövr ərzində məsafədən təhsilin təşkili prosesində ciddi mənada böyük müsbət dəyişikliyin olduğunu yekdilliklə qeyd etmişdir. Bununla bərabər 6 təhsil müəssisəsinin nümayəndəsi məsafədən təhsilin davam etməsini, 6 nümayəndə isə təhsilin məsafədən olacaq formada davam etməməsini məqsədəuyğun hesab etmişdir. 7 nümayəndə tədrisin təşkilinin hibrid formada həyata keçirilməsini dəstəklədiyini ifadə etmişdir. 2 təhsil müəssisəsinin nümayəndəsi isə məsafədən təhsilin xüsusi hallar üçün daha məqsədəuyğun olduğunu hesab etmişdir.

Məsafədən tədrisin təşkili ilə bağlı təhsilalanların rəylərini öyrənmək məqsədilə araşdırmada iştirak edən müəssisələrin 52%-i sorğular həyata keçirdiyini, 38% müəssisə təhsilalanlardan şifahi formada rəy aldığını, 10% isə bu mövzuda hər hansı bir fəaliyyəti icra etmədiyini qeyd etmişdir.

Tələbə nailiyyətinin qiymətləndirilməsi ilə əlaqəli təhsil müəssisələrinin yaşadıqları müsbət və mənfi təcrübələr öyrənilməyə çalışılmışdır. Təhsil müəssisələrinin nümayəndələrinin əksəriyyəti tələbə nailiyyətlərinin qiymətləndirilməsi prosesində kənar vasitələrdən istifadə hallarından şikayətçi olduqlarını bildirmişdir.

Təhsil müəssisələrinin nümayəndələri ilə keçirilən müsahibələrdən əldə edilən məlumatların təhlilindən ortaya çıxan nəticələr əsas götürülərək tövsiyələr hazırlanmışdır və hesabatın sonunda təqdim olunmuşdur.

## GİRİŞ

2019-cu ilin sonlarına doğru ortaya çıxan COVID-19 infeksiyası qısa bir müddət ərzində, qlobal səviyyədə səhiyyə, iqtisadiyyat, təhsil, turizm sektoru başda olmaqla ictimai həyatın bütün sahələrində əhəmiyyətli dərəcədə dəyişikliklərə səbəb olmuşdur. Virusun qısa bir zamanda sürətlə yayılması qarşısında 11 mart 2020-ci il tarixində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan edilmişdir. Pandemiya dünyadakı təhsil sistemlərinin demək olar ki, hamısına təsir etmiş, fərqli addımların atılması zərurətini yaratmışdır.

UNESCO (2020) tərəfindən təqdim olunan statistikalarda 1 aprel 2020-ci il tarixində COVID-19 pandemiyası səbəbi ilə dünyanın 194 ölkəsində məktəblərin bağlandığı və bu vəziyyət qarşısında 1,598,099,008 şagirdin məktəbdən uzaq qaldığı qeyd edilmişdir. Bu isə bütün dünyadakı şagirdlərin 91,3%-i deməkdir.

Azərbaycan Respublikası ərazisində COVID-19-a ilk yoluxma halına fevral ayının sonunda rast gəlinmişdir. İnfeksiyanın yayılmasının qarşısını almaq məqsədi ilə Nazirlər Kabinetinin (NK, 2020) qərarı ilə 2 mart 2020-ci il tarixində ölkədəki bütün təhsil qurumlarında (məktəbəqədər müəssisələrdən tutmuş ali təhsil müəssisələrinə qədər) təhsil prosesinə fasilə verilmişdir. Təhsil müəssisələrinin növbəti həftələrdə açılması planlansa da, yoluxma hallarının artması bu planın həyata keçirilməsinə mane olmuşdur.

UNESCO (2020) tərəfindən təqdim olunan statistik məlumatlarda COVID-19 infeksiyası səbəbi ilə təhsil prosesinə fasilə verilməsinin Azərbaycanda 1,983,999 təhsilalanın təhsilinə təsir etdiyi qeyd olunmuşdur. Təhsil pillələrinə və səviyyələrinə görə təqdim olunan statistikalarda 203,011 nəfərin məktəbəqədər təhsil müəssisələrində, 635,153 nəfərin ibtidai təhsil, 945,226 nəfərin ümumi orta təhsil pilləsində və 200,609 nəfərin isə orta ixtisas və ya ali təhsil müəssisələrindəki təhsilalanlar olduğu qeyd edilmişdir.

Yaranmış vəziyyət qarşısında hər ölkə öz imkanları çərçivəsində qarşıya çıxan problemlərin həlli istiqamətində müxtəlif fəaliyyətlər həyata keçirmişdir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, təhsilin əsas insan hüquqlarından biri olduğu prinsipinə uyğun olaraq pandemiya səbəbi ilə fasilə verilən təhsili kompensasiya etmək məqsədilə ölkələr qısa müddət ərzində müxtəlif addımlar atmağa, o cümlədən fövqəladə hallarda məsafədən təhsil (emergency remote education) tətbiqlərindən istifadə etməyə başlamışdır.

Ölkəmizdə də təhsilin fasiləsizliyini təmin etmək məqsədi ilə ümumtəhsil müəssisələri, orta ixtisas müəssisələri və ali təhsil müəssisələri üçün müxtəlif qərarlar verilmişdir. Təhsil proqramlarının mənimsənilməsinin təmin edilməsi məqsədilə Təhsil Nazirliyinin (TN) tövsiyəsinə uyğun olaraq, ali və orta ixtisas təhsili müəssisələrində müxtəlif onlayn platformalar üzərindən fövqəladə hallarda

məsafədən təhsilin təşkilinə başlanmışdır. Ali təhsil pilləsi üzrə bu müddət ərzində məsafədən təhsilə 100 mindən artıq tələbə və professor-müəllim heyəti qoşulmuşdur.

Ali təhsil müəssisələrinə Təhsil Nazirliyinin təqdim etdiyi "MS Teams" platformasından ödənişsiz istifadə imkanı yaradılmış və onlara texniki dəstək göstərilmişdir. Bununla yanaşı, tədris prosesinin məsafədən təşkili zamanı ali təhsil müəssisələrinin özlərinin daxili tədrisin elektron idarəedilməsi sistemi, "Coursera for Campus" proqramı (UNEC, DGKA, BANM), "Blackboard Colloborate" proqramı (ADA), KOICA şirkətinin sistemi (AzTU), "ZOOM" və "Moodle", "Google classroom" və digər proqram təminatlarının imkanlarından istifadə olunmuşdur. Onlayn dərslərdə müəyyən səbəblərdən iştirak edə bilməyən tələbələrə mühazirələrin videoyazısını izləmək imkanları da yaradılmışdır (TN, 2020).

Pandemiyanın davam etməsi ölkədə təhsilin onlayn formada davam etməsini zəruri etmişdir. Ümumtəhsil müəssisələrində dərslər müxtəlif vaxtlarda hibrid formada təşkil olunsa da, ali təhsil və orta ixtisas müəssisələrində 2020-2021-ci tədris ilinin payız və yaz semestrində dərslər və imtahanlar onlayn formatda təşkil olunmuşdur.

Pandemiya dövründə ali təhsil müəssisələrinin məsafədən təhsil təcrübəsini öyrənmək üçün ayrı-ayrı qurumlar tərəfindən müxtəlif tədqiqatlar həyata keçirilmişdir. Belə ki, mövzu ilə əlaqəli bir tədqiqat 2020-ci ilin aprel-may aylarında Dövlət Gömrük Komitəsinin Akademiyasının dəstəyi ilə beynəlxalq və yerli mütəxəssislər tərəfindən həyata keçirilmişdir. Müvafiq araşdırmada Azərbaycanda fəaliyyət göstərən həm dövlət, həm özəl, həm xüsusi təyinatlı, həm də region universitetlərinin tələbələri iştirak etmişdir. Araşdırmada ümumilikdə 3963 tələbə iştirak etmişdir. Araşdırmada iştirak edən tələbələrin 80%-dən çoxu sinxron məsafədən təhsil prosesinin effektiv bir öyrənmə vasitəsi olmadığını qeyd etmişdir. Həmçinin, 72% tələbə isə müxtəlif səbəblərdən dərslərə fəal olaraq qoşula bilmədiyini bildirmişdir. Bu səbəblər arasında internet bağlantısının zəif olması, onlayn tədris yolu ilə öyrənə bilməyin mümkünsüzlüyü, internetə çıxışın məhdud olması, motivasiyanın azlığı, dərslərə qoşulmaq üçün texnoloji vasitənin qənaətbəxş səviyyədə olmaması və ev şəraitinin uyğun olmamasını qeyd olunmuşdur.

Bir digər araşdırma isə ali təhsil müəssisələrində məsafədən tədrisin təşkilinin mövcud vəziyyətinin öyrənilməsi, müəssisələrin məsafədən tədrisin təşkili prosesində qarşılaşdıqları problemlərin və təlim ehtiyaclarının müəyyən olunması məqsədi ilə Təhsil nazirinin müvafiq tapşırığı əsasında Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən həyata keçirilmişdir. Müvafiq araşdırma çərçivəsində 2020-ci ilin dekabr ayında TKTA tərəfindən 32 ali təhsil müəssisəsində distant tədrisin təşkilinin monitorinqi aparılmışdır. Monitorinqlər idarəetmə, tədrisin təşkili və dərsin təşkili və dərs mühiti istiqamətləri üzrə həyata keçirilmişdir. Monitorinqlərin nəticələri göstərmişdir ki, ali təhsil müəssisələrində əsas çatışmazlıqlar tədrisin təşkili istiqaməti ilə bağlıdır.

Ötən dövr ərzində ölkədəki ali və orta ixtisas müəssisələrinin pandemiya müddətindəki təcrübələrinin tədqiq olunması məqsədilə Azərbaycan Respublikası Təhsil İnstitutu tərəfindən də tədqiqatlar aparılmışdır. Cari ildə aparılmış tədqiqatda ölkədəki ali və orta ixtisas təhsili müəssisələrində distant təhsildə öyrənmə nəticələrinin araşdırılması məqsəd olaraq qarşıya qoyulmuşdur. İlkin mərhələdə cari vəziyyəti təhlil etmək üçün universitetlərə 4 fərqli sorğu göndərilmişdir. Sorğular tələbələr, tədris işlərinə məsul heyət və professor-müəllim heyətini əhatə etmişdir. Keçirilmiş sorğularda 41366 nəfər tələbə, 465 nəfər tədris işlərinə məsul heyət və 3059 nəfər professor-müəllim iştirak etmişdir.

Müvafiq araşdırmanın davamı olaraq ikinci mərhələdə isə pandemiya dövründə distant təhsilin təşkilindən və tədris prosesinin təşkili və keyfiyyət təminatı ilə bağlı fəaliyyətlərin icrasından məsul olan ali və orta ixtisas müəssisələrinin əməkdaşları ilə müsahibələrin təşkil olunması və vəziyyətin təhlili məqsəd olaraq qarşıya qoyulmuşdur. Bu məqsədə nail olmaq üçün müxtəlif orta ixtisas və ali təhsil müəssisələrinin əməkdaşları ilə onlayn formatda görüşlər keçirilmiş və əldə edilmiş məlumatlar emal edilərək müvafiq hesabat hazırlanmışdır.

Bu araşdırmada istifadə edilmiş metod, araşdırmanın əhatə dairəsi, məlumatların toplanılması və emalı prosesi ilə əlaqəli datalar hesabatın metodologiya bölməsində qeyd olunmuşdur.

## METODOLOGİYA

### *Metod*

Araşdırmada keyfiyyət metodundan istifadə olunmuşdur. Keyfiyyət metodu müsahibə, müşahidə, sənəd analizi kimi müxtəlif vasitələrdən istifadə edərək məlumatların toplanılmasını özündə ehtiva edən bir metoddur. Keyfiyyət metodunun istifadə edildiyi araşdırmalarda araşdırma problemi şərhedici bir yanaşma ilə tədqiq edilir.

Mövcud araşdırmada əldə olunan məlumatlar müsahibələr vasitəsilə toplanılmışdır. Müsahibələr insanların baxış bucaqlarını, subyektiv təcrübələrini, duyğularını və qavrayışlarını ortaya qoymaq üçün istifadə olunan bir məlumat toplama vasitəsidir.

### *İştirakçılar*

Araşdırmada 21 ali və orta ixtisas təhsili müəssisəsinin məsul əməkdaşı iştirak etmişdir. Respondentlərlə əlaqəli demoqrafik məlumatlar Cədvəl 1-də əks olunmuşdur.

**Cədvəl 1. Respondentlərə dair demoqrafik məlumatlar**

| Respondent | Cinsiyyət | Təmsil etdiyi təhsil müəssisəsinin növü |
|---|---|---|
| R1 | Kişi | Ali təhsil müəssisəsi |
| R2 | Kişi | Ali təhsil müəssisəsi |
| R3 | Kişi | Ali təhsil müəssisəsi |
| R4 | Kişi | Ali təhsil müəssisəsi |
| R5 | Kişi | Ali təhsil müəssisəsi |
| R6 | Qadın | Orta ixtisas müəssisəsi |
| R7 | Qadın | Orta ixtisas müəssisəsi |
| R8 | Qadın | Orta ixtisas müəssisəsi |

| | | |
|---|---|---|
| R9 | Kişi | Orta ixtisas müəssisəsi |
| R10 | Kişi | Ali təhsil müəssisəsi |
| R11 | Qadın | Orta ixtisas müəssisəsi |
| R12 | Qadın | Ali təhsil müəssisəsi |
| R13 | Qadın | Orta ixtisas müəssisəsi |
| R14 | Qadın | Orta ixtisas müəssisəsi |
| R15 | Qadın | Ali təhsil müəssisəsi |
| R16 | Kişi | Ali təhsil müəssisəsi |
| R17 | Kişi | Ali təhsil müəssisəsi |
| R18 | Kişi | Ali təhsil müəssisəsi |
| R19 | Kişi | Ali təhsil müəssisəsi |
| R20 | Kişi | Ali təhsil müəssisəsi |
| R21 | Qadın | Ali təhsil müəssisəsi |

İştirakçıların cinsiyyətə görə bölgüsü Qrafik 1-də göstərilmişdir.




Qrafik 1. İştirakçıların cinsiyyətə görə bölgüsü

Qrafik 1-dən göründüyü kimi iştirakçıların 12 nəfəri (57%) kişi, 9 nəfəri (43%) isə qadındır.

Araşdırmada iştirak edən iştirakçıların təmsil etdikləri müəssisənin növünə görə bölgüsü Qrafik 2-də əks olunmuşdur.




Qrafik 2. Təhsil müəssisəsinin növü

Qrafik 2-dən göründüyü kimi müvafiq araşdırmada iştirak edən iştirakçılardan 14 nəfəri (67%) ali təhsil müəssisəsini, 7 nəfəri (33%) isə orta ixtisas müəssisəsini təmsil edir.

Araşdırmada iştirak edən iştirakçıların təmsil etdikləri müəssisənin yerləşdiyi əraziyə görə bölgüsü Qrafik 3-də göstərimişdir.




Qrafik 3. Təhsil müəssisələrinin yerləşdiyi əraziyə görə bölgüsü

Qrafik 3-də əks olunduğu kimi araşdırmada iştirak edən 21 iştirakçının təmsil etdiyi təhsil müəssisəsinin 14-ü (67%) Bakı və Sumqayıt ərazisində, 7-si (33%) isə digər bölgələrdə fəaliyyət göstərir.

Araşdırma iştirakçılarının vəzifəyə görə bölgüsü Cədvəl 2-də əks olunmuşdur.

Cədvəl 2. Araşdırmada iştirak edənlərin vəzifəyə görə bölgüsü

| Vəzifə | Sayı | % |
|---|---|---|
| Tədris/tərbiyə işləri üzrə direktor/müdir müavini | 6 | 28,5 |
| Keyfiyyət təminatı ilə əlaqəli şöbə/mərkəzin müdiri | 4 | 19 |
| Tədris hissəsi/şöbəsi/departamenti direktor/müdiri | 3 | 14,2 |
| Distant təhsil xidmətini təmin edən mərkəz rəhbəri | 2 | 9,5 |
| Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri | 1 | 4,8 |
| İKT mərkəzinin direktoru | 1 | 4,8 |
| Tədris Metodiki Mərkəzin müdir müavini | 1 | 4,8 |
| Tədris işləri üzrə prorektor | 1 | 4,8 |
| əyani şöbə müdiri | 1 | 4,8 |
| Tyutor | 1 | 4,8 |
| **Cəmi** | **21** | **100** |

Cədvəl 2-də təqdim olunduğu kimi, araşdırma iştirakçılarından 6 nəfəri tədris/tərbiyə işləri üzrə direktor/müdir müavini, 4 nəfəri keyfiyyət təminatı ilə əlaqəli şöbə/mərkəzin müdiri, 3 nəfər tədris hissəsi/şöbəsi/departamentinin direktoru/müdiri, 2 nəfər distant təhsil xidmətini təmin edən mərkəz rəhbəri, 1 nəfər monitorinq və qiymətləndirmə şöbəsinin müdiri, 1 nəfər İKT mərkəzinin direktoru, 1 nəfər Tədris Metodiki Mərkəzin müdir müavini, 1 nəfər tədris işləri üzrə prorektor, 1 nəfər əyani şöbə müdiri, 1 nəfər isə tyutor olaraq fəaliyyət göstərir.

Araşdırma iştirakçılarının cari vəzifələrdəki təcrübəsinin ortalaması 4 il olaraq hesablanmışdır.

## *Məlumat toplama prosesi və məlumatların toplanılması*

Ali və orta ixtisas təhsili müəssisələrinin məsul əməkdaşları ilə 14-22 iyun tarixləri arasında müsahibələr keçirilmişdir[1]. Müsahibələrin keçirilməsi üçün uyğun vaxtı müəyyən etmək məqsədi ilə ayrı-ayrı təhsil müəssisələrinin əməkdaşları ilə telefon vasitəsilə əlaqə saxlanılmış və onlara uyğun olan vaxt müəyyənləşdirilmişdir.

Müsahibələrin keçirilmə müddəti ortalama 45 dəqiqə davam etmişdir. Bütün müsahibələr "Zoom" platforması vasitəsilə həyata keçirilmişdir. Müsahibələr əsasında verilən məlumatların təhlil edilməsi nəzərdə tutulduğu üçün müsahibələrin video qeydiyyatı aparılmışdır. Bu barədə müsahibə başlayarkən təhsil müəssisələrinin əməkdaşlarına məlumat verilmiş və onların razılığı alınmışdır.

[1] Müsahibələrin həyata keçirilməsində əsas ekspertlər ilə yanaşı müstəqil ekspert Həsən Süleymanlı da iştirak etmişdir.

Araşdırma çərçivəsində ekspertlər tərəfindən əvvəlcədən hazırlanan yarı strukturlaşdırılmış (semi-structured interview) bir müsahibə forması hazırlanmışdır. Müvafiq formanın birinci hissəsində iştirakçıların demoqrafik məlumatlarını əks etdirən suallar, ikinci hissədə isə mövzu ilə əlaqəli hazırlanan suallar qeyd olunmuşdur **(Əlavə 1)**. Müsahibələr zamanı ekspertlər iştirakçılara daha əvvəlcədən hazırlanmış suallarla yanaşı müsahibə əsnasında ortaya çıxan və mövzu ilə əlaqəli açıqlayıcı əlavə suallar da ünvanlamışlar.

*Məlumatların təhlili*

Araşdırma çərçivəsində əldə olunan məlumatların təhlili üçün birinci mərhələdə 21 iştirakçının hər biri "R1, R2, R3.... R21" olaraq kodlanmışdır. Daha sonra iştirakçılar ilə keçirilən görüşlərin videoyazısı izlənilmiş və əldə edilən xam məlumatlar deşifr (*deşifr və ya transkripsiya; audio-vizual məlumatların yazıya çevrilməsi prosesinə verilən addır*) edilərək mətnə çevrilmişdir. Deşifr edilən məlumatlar ortaq xüsusiyyətlərinə görə kateqoriyalarda təsnif edilmişdir və mövzular formalaşdırılmışdır.

## NƏTİCƏ

Məlumatların təhlili və əldə olunan nəticələr bu alt başlıqda cədvəllərdə təqdim olunaraq şərh edilmişdir.

Araşdırmada birinci sual olan "Ümumilikdə məsafədən təhsili prosesini təmsil etdiyiniz qurumun simasında necə qiymətləndirirsiniz?" sualına iştirakçıların verdiyi cavablar qruplaşdırılmış və 4 kateqoriyada təsnif edilmişdir. Müvafiq kateqoriyalar **"Töhfələr", "Çətinliklər", "Müəssisənin dəstəyi"** və **"Təcrübənin davam etməsinə münasibət"** olaraq adlandırılmışdır. Hər bir kateqoriya və müvafiq kateqoriyaya daxil olan göstəricilər ayrı-ayrı cədvəllərdə təqdim olunmuşdur.

"Töhfələr" kateqoriyasına aid göstəricilər Cədvəl 3-də göstərilmişdir.

**Cədvəl 3.** Məsafədən təhsilin verdiyi töhfələr

| Mövzu | Kodlanmış fikirlər | Sayı | % |
|---|---|---|---|
| Texnoloji töhfələr | Müəllimlərin İKT bacarıqlarının artması | 9 | 36 |
| | Elektron resursların yaradılması | 5 | 20 |
| | Monitorinqlərin daha rahat həyata keçirilə bilməsi | 4 | 16 |
| | Tələbələrin İKT bacarıqlarının artması | 3 | 12 |
| | Texnologiyadan istifadə təcrübəsinin əldə olunması (yeni bir sistemlə tanışlıq) | 2 | 8 |
| | Texnika fobiasının aşılması | 1 | 4 |
| | Müəllimlərin daha çox təlimlərə, konfranslara qoşulması | 1 | 4 |
| | Cəmi | | 100 |
| Təhsilalanlara verdiyi töhfələr | Vaxt itkisinin qarşısının alması | 3 | 26 |
| | Tələbələrdə başqa formada təhsil ala biləcəkləri ilə bağlı dünyagörüşünün formalaşması | 2 | 17 |
| | Tələbələrin müstəqillik əldə etməsi | 2 | 17 |
| | Tələbələrin maraq dairəsinin genişlənməsi | 1 | 12 |
| | Tələbələrin beynəlxalq onlayn kurslara qoşula bilməsi | 1 | 12 |

| | | | |
|---|---|---|---|
| | Tələbələrin zamanın idarəolunması bacarığının artması | 1 | 12 |
| | Tələbələrin universitetə qarşı loyallığının artması | 1 | 12 |
| | Tələbələr üçün əlavə xərclərin azalması | 1 | 12 |
| | Cəmi | | 100 |
| Təhsil sisteminə verdiyi töhfələr | Effektivliyin təmin olunması | 2 | 20 |
| | Məktəbin və müəllimin dəyərinin yüksəlməsi | 1 | 10 |
| | Tələbə sayının artması | 1 | 10 |
| | Universitetlərin gəlirinin artması | 1 | 10 |
| | Təhsilin daha dəyərli olması | 1 | 10 |
| | Cavan müəllimlərin real potensialının ortaya qoyulması | 1 | 10 |
| | Bürokratik əngəllər ilə qarşılaşan müəllimlərin real potensialının ortaya qoyulması | 1 | 10 |
| | Təhsildəki çatışmazlıqları göstərməsi | 1 | 10 |
| | Mövzuların müasir tələblərə uyğun şəkildə təqdim olunması | 1 | 10 |
| | Bəzi fənlərin əyani keçilməsinə ehtiyac olmadığının anlaşılması | 1 | 10 |
| | Cəmi | | 100 |
| Digər töhfələr | Məkan anlayışının olmaması | 4 | 54,1 |
| | Zaman anlayışının olmaması | 1 | 14,3 |
| | İnsanların mədəniyyətinin artması | 1 | 14.3 |
| | Xəstəlikdən qorunma | 1 | 14,3 |
| | Cəmi | | 100 |

Cədvəli 3-dən göründüyü kimi birinci suala verilən cavablar dörd fərqli kateqoriyada təsnif edilmişdir. Birinci kateqoriyada məsafədən təhsilin töhfələri ilə əlaqəli fikirlər yer almışdır. Töhfələr özü də texnoloji töhfələr, təhsilalanlara verdiyi töhfələr, təhsil sisteminə verdiyi töhfələr və digər töhfələr olaraq qruplaşdırılmışdır. Məsafədən təhsilin texnoloji töhfələri arasında ən çox fikir birliyi prosesin professor-müəllim heyətinin informasiya kommunikasiya texnologiyaları (İKT) bacarığına verdiyi töhfə ilə əlaqəli olmuşdur. Belə ki, R1 "*Məncə məsafədən təhsil dövründə çox şey dəyişdi, İKT bacarıqları artdı müəllimlərin, məcbur qaldılar, evlərinin köşəsini buna uyğunlaşdırldılar*", R2 "*Universitetin 700-dən çox professor-müəllim heyəti var. Onların İKT bacarıqlarının bu qədər problem olduğunun fərqinə varmayacaqdıq. Məsələn, müəllim sinfə girirdi, proyektordan istifadə edirdi, təqdimat hazırlayırdı və ya hazırlamırdı, bir şəkildə dərs gedirdi. Universitetlər fərqinə vardı ki, müəllimlərin akademik heyətin İKT bacarıqları çox vacibdir*" deyərək məsafədən tədris prosesinin professor-müəllim heyətinin İKT bacarıqlarının təkmilləşməsinə təsir etdiyi qeyd etdi və bunu əsas töhfə olaraq gördü.

Təhsilalanlara verdiyi töhfələrdə isə ən çox fikir birliyinin olduğu töhfə tələbələrin vaxt itkisinin qarşısının alınması ilə əlaqəli olmuşdur. Belə ki, R7 "*Pandemiyanın olduğu bir dövrdə mən distant dərsi dəstəkləyirəm. Bir çox üstünlüklər var, vaxt itkisi olmur, vaxt qazanırıq. Valideynlər razıdırlar ki, tələbələrin ailələri ilə birlikdə oturub dərslərinə davam edirlər. Pandemiya davam edərsə distant təhsili dəstəkləyirəm*" deyərək məsafədən təhsilin tələbələrin vaxt itkisinin qarşısını aldığını vurğulamışdır. R5 isə "*Əgər universitet rəhbərliyi il ərzində iki dəfə fiziki olaraq gəzib auditoriyaya girə bilirdisə, distant təhsildə isə hər hansı müəllim, cavan, yaşlı müəllimin canlı dərsinə, videosuna baxa bilir. Bu mənə görə kölgədə qalan cavan müəllimlərin, bürokratik əngəllər ilə qarşılaşan müəllimlərin real potensialını ortaya qoydu. Bu həm də bu sahədəki boşluqlarımızı görməyə imkan yaratdı*" deyə qeyd edərək məsafədən təhsilin təhsil sisteminə verdiyi töhfələri vurğulamışdır.

Sadalanan üç kateqoriyaya daxil olmayan töhfələr arasında məkan anlayışının olmaması ən çox səsləndirilən töhfələrdən biri olmuşdur.

İştirakçıların məsafədən təhsil prosesində qarşılaşdıqları çətinliklər Cədvəl 4-də dörd kateqoriya üzrə təsnif edilmişdir. Bu kateqoriyalar **"texnologiya ilə əlaqəli çətinliklər", "adaptasiya ilə əlaqəli çətinliklər", "resursla əlaqəli çətinliklər"** və **"digər çətinliklər"** olaraq adlandırılmışdır.

Cədvəl 4. Məsafədən təhsilin çətinlikləri

| Mövzu | Kodlanmış fikirlər | Sayı | % |
|---|---|---|---|
| Texnologiya ilə əlaqəli çətinliklər | İnternet | 18 | 60 |
| | Tələbələrin texniki problemləri (avadanlıqlarının olmaması) | 5 | 16,7 |
| | Müəllimlərin İKT bacarıqlarının zəif olması | 4 | 13,3 |
| | Müəllimlərin texniki problemləri (avadanlıqlarının olmaması) | 3 | 10 |
| | Cəmi | | 100 |
| Adaptasiya ilə əlaqəli çətinliklər | Təhsilverənlərin texniki və psixoloji adaptasiyası | 7 | 50 |
| | Müəllimlərin yaşı | 4 | 28,6 |
| | Zehniyyət (dünyagörüşü) | 2 | 14,3 |
| | Tələbələrin distant təhsilə hazır olmaması | 1 | 7,1 |
| | Cəmi | | 100 |
| Resursla əlaqəli çətinliklər | Tələbələrin maddi imkanlarının zəif olması (internet əldə etmək üçün) | 4 | 50 |
| | İnfrastrukturun olmaması | 3 | 37,5 |
| | Universitetin maddi texniki bazasından tələbələrin istifadə edə bilməməsi (bəzi ixtisaslar üçün vacibdir) | 1 | 12,5 |
| | Cəmi | | 100 |
| Digər çətinliklər | Ənənəvi təhsillə distant təhsilin keyfiyyətinin bir olmaması | 3 | 21,5 |
| | Bəzi dərslərin onlayn mühitdə tədris edilə bilməməsi (ixtisas, musiqi) | 3 | 21,5 |
| | Kameraların bağlı olması | 2 | 14,3 |
| | Müharibənin gətirdiyi çətinliklər | 2 | 14.3 |
| | Ünsiyyət bacarıqlarının zəifləməsi | 1 | 7,1 |
| | Kompüterdən asılılıq | 1 | 7,1 |
| | Mövzuların sıxlaşdırılması | 1 | 7,1 |
| | Ziddiyyətli durumların ortaya çıxması (internet səbəbindən qoşula bilmədikdə tələbəyə qayıb yazılmalıdırmı və s.) | 1 | 7,1 |
| | Cəmi | | 100 |

Cədvəl 4-dən göründüyü kimi məsafədən təhsilin çətinlikləri kateqoriyası çərçivəsindəki suala verilən cavablar dörd fərqli alt kateqoriyada təsnif edilmişdir. Bu alt kateqoriyalar texnologiya ilə əlaqəli çətinliklər, adaptasiya ilə əlaqəli çətinliklər, resursla əlaqəli çətinliklər, digər çətinliklər olaraq qruplaşdırılmışdır. Texnologiya ilə əlaqəli çətinliklər arasında ən çox internet problemi səsləndirilmişdir.

R7 *"Çox vaxt internet problemi ilə qarşılaşırıq. Hətta sizinlə olan görüş üçün o qədər narahat və həyəcanlı idim ki, internet işləməz deyə. Meqabayt belə işləmir bəzən, bu da məsələn qrupda 20 tələbə varsa onun 15-i qoşula bilir, 5-i qoşula bilmirsə, gerilik yaranır. Bəzən bu problem müəllimdə də olur"*, R18 isə *"Ən böyük çətinliyimiz o oldu ki, mərkəzi qurduq amma internet yoxdur ölkədə,*

*internet kəsildi*" deyərək pandemiya dövründə ən böyük çətinliklərinin internetlə bağlı olduğunu bildirmişdirlər.

Adaptasiya ilə əlaqəli çətinliklər arasında təhsilverənlərin texniki və psixoloji adaptasiyası ən çox fikir birliyinin olduğu çətinlik olaraq qeyd edilmişdir. Belə ki, R12"*Prosesin özünü quranda ən böyük çətinlik məsafədən tədrisə müəllimlərin texniki adaptasiyası oldu*" deyərək təmsil etdiyi qurumda fəaliyyət göstərən müəllim-professor heyətinin adaptasiya ilə bağlı yaşadığı problemi ifadə etmişdir. R3 isə "*3 və ya 4 dəfə müəllimlər arasında, tədris hissə müdirləri arasında təlimlər keçmişdik. Hətta bu təlimlərdən sonra videotəlimat formasında hazırlayıb bütün müəllimlərə, tələbələrə, kafedralara göndərmişdik ki, müəyyən problemlərlə rastlaşdıqda girib təlimatlardan tapa bilərsiniz. Yenə də bununla bərabər yaş etibarilə yuxarı müəllimlərdə problemlər yaşandı, amma onlar da yavaş-yavaş həll oldu. Onların daxilindəki məsuliyyət hissi vadar edirdi ki, nə isə öyrənsinlər. Ümumiyyətlə, bilməyənlər məsələn, həmin kaferdradan laborantmı deyək, ya gənc nəslin nümayəndələrindən kömək istəyirdi və onlar da kömək edirdilər*" deyərək müəssisənin dəstək göstərdiyinə baxmayaraq pedaqoji heyətin müəyyən qədər problem yaşadığını qeyd etmişdir.

Resursla əlaqəli çətinliklər içərisində respondentlərin əksəriyyəti tələbələrin maddi imkanlarının zəif olması (internet əldə etmək üçün) məsələsinə diqqəti çəkmişdirlər. R5"*Tələbələrin maddi imkanlarının zəif olması, internet paketlərinin baha olması problemi vardı, pandemiyadır, camaat işləmir, mən bunu məcbur edim kompüter alsın, internet çəkdirsin və s.*" deyərək tələbələrin resurslarla bağlı qarşılaşdıqları çətinlikləri vurğulamışdır.

Digər çətinliklər alt kateqoriyasında isə ənənəvi təhsillə distant təhsilin keyfiyyətinin bir olmaması, bəzi dərslərin onlayn mühitdə tədris edilə bilməməsi (ixtisas, musiqi) problemləri respondentlərin ən çox qarşılaşdıqları çətinliklərdir. R16 "*Akademik nöqteyi-nəzərdən bir sıra fənlər, ixtisaslar üzrə (xüsusilə praktik fənlər, məsələn fiziki tərbiyə müəllimliyi ixtisası üzrə fənlər) çətinliklər yarandı*", R11 "*Tədrisin keyfiyyəti yaxşı olmadı, internetlə musiqi dərsinin tədrisi çətin oldu, internet kəsilirdi. Xüsusən rayonlarda yaşayan tələbələrdə çətinliklər olurdu. Alətlərlə ifa etmək üçün müəllim lazımdır, onlayn təhsildə bunlar mümkün olmadı*" deyərək təmsil etdikləri qurumda yaşanan problemləri izah etməyə çalışmışdırlar.

İştirakçıların təmsil etdikləri müəssisələrin məsafədən təhsil dövründə hansı növ dəstəyi təmin etdikləri ilə əlaqəli qeyd etdiyi fikirlər Cədvəl 5-də öz əksini tapmışdır.

Cədvəl 5. Məsafədən təhsil dövründə müəssisənin dəstəyi

| Mövzu | Kodlanmış fikirlər | Sayı | % |
|---|---|---|---|
| Müəssisənin dəstəyi | Təlimlər | 14 | 42,5 |
| | Video təlimatlar | 7 | 21,5 |
| | Fərdi köməklik | 6 | 18 |
| | Akademik məzmunun uyğunlaşdırılması (Sillabusun yenilənməsi, dərslərin təşkili qaydalarının dəyişdirilməsi və s.) | 3 | 9 |
| | Kənardan mütəxəssis dəvət olunması və kurs təşkil edilməsi | 1 | 3 |
| | IT sertifikasiyası | 1 | 3 |
| | Təlim keçməmişik | 1 | 3 |
| | **Cəmi** | | 100 |

Məsafədən təhsilin davam etdiyi dövrdə istər ali təhsil müəssisələrində, istərsə də orta ixtisas müəssisələrində fəaliyyət göstərən professor-müəllim heyətinə müəssisələri tərəfindən müxtəlif formada dəstək göstərilmişdir. Müvafiq dəstəklər Cədvəl 5-də təqdim olunmuşdur. Qeyd edilməlidir

ki, bu dəstək növlərindən yalnız birinə müraciət edən müəssisələrlə bərabər, bir neçə fərqli dəstəyi eyni anda təmin edən müəssisələr də vardır.

Cədvəl 5-dən göründüyü kimi iştirakçıların əksəriyyəti prosesdə ən çox təlimlərin təşkil edildiyini bildirmişdir. Həmçinin, videotəlimatlar və professor-müəllim heyətinə göstərilən fərdi dəstək də müəssisə tərəfindən təmin edilmişdir. Belə ki, R12 "*Biz professor-müəllim heyəti ilə sentyabrda 3-4 günlük təlimlər keçirdik. Həmin təlimlərdə biz ümumiyyətlə, məsafədən tədrisin təşkili ilə bağlı xeyli təlimlər verdik. Yeni sillabus nümunələri təqdim etdik. Bu sillabus nümunələrində yeni əlavələrimiz oldu, təlim nəticələrinə diqqətimizi daha çox yönəltməyə çalışdıq*", R19 *Biz təlimlər keçəndən sonra müəllimlər gördülər ki proqram çox rahatdır. Bütün tələbələr eyni vaxtda suala cavab verir, qiymətləndirmə aparırsınız və "edumana" köçürürsünüz. İmtahan zamanı tələbələrə nəzarət üçün proktorlarımızın təlimi məsələsi var idi. Bunun üzərində də çox iş görüldü. Təlimlər vasitəsi ilə problemlər həll olundu*", R7 "*Bu dövrdə tədbirlər çox görüldü. Ən çox internet problemi olduğu üçün kollec hər bir müəllim üçün şəraiti yaratdı. Hansısa bir müəllimin evdə dərs keçmə imkanı yox idisə həftədə 2-3 dəfə dərsinə saatına uyğun olaraq kollecdə və yaxud da burada Quzanlı qəsəbəsində internet klublar var, onlarla biz danışaraq həm tələbə üçün həm müəllim üçün köməkliklər göstərdik*" deyərək müəssisələrinin təmin etdiyi dəstək növləri haqqında məlumat vermişdir.

Pandemiyanın başladığı ilk dövrlər ilə müqayisədə cari dövrdəki vəziyyətin müqayisəsi ilə əlaqəli iştirakçıların cavabları Cədvəl 6-da qeyd edilmişdir.

Cədvəl 6. Pandemiyanın başlanğıcındakı vəziyyət ilə cari vəziyyətin müqayisəsi

| Mövzu | Kodlanmış fikirlər | Sayı | % |
|---|---|---|---|
| **Vəziyyətin müqayisəsi** | Çox böyük fərq var | 21 | 100 |
| | Fərq yoxdur | 0 | 0 |
| | **Cəmi** | | **100** |

Cədvəl 6-dan göründüyü kimi tədqiqatda iştirak edən 21 müəssisənin 21-i də təmsil etdikləri təhsil müəssisəsində pandemiyanın başlanğıcındakı vəziyyət ilə cari vəziyyət arasında çox böyük fərqin olduğunu bildirmişdirlər.

R13 "*İrəliləyişimiz çoxdur, müəllimlər də, tələbələr də texniki baxımdan çox şey öyrəndi. Pandemiyanin ilk dövründə müəllim və tələbələrdə internet problemi çox oldu, internetləri yox idi. Ancaq o problemlərin 70 faizi aradan qaldırılıb.*", R17 "*Ümumiyyətlə mən deyərdim ki, müqayisə etmək olmazdı. Biz ənənəvi təhsildə bilirdik ki, nə etməliyik, hər il tədrisin təşkilini edirdik. Bizə bəlkə də 2019-cu ilin əvvəlində desəydilər ki, belə distant təhsil təşkil edəcəksiniz biz heç inanmazdıq və deyərdik ki, bu mümkün olmaz. Amma bu gün səmimi olaraq deyə bilərik ki, bizim üçün artıq fərq eləməz. Çünki biz bu distant təhsili adladıq və uğurlu adladıq*", R18 "*Çox böyük fərq var. Yenə deyirəm, biz "Zoom "və ya "Whatsapp" proqramı üzərindən qeyri-peşəkarcasına başlamışdıq. Amma bu gün nəinki inzibati heyət, həmçinin müəllimlərimiz artıq professional səviyyəyə gəliblər*" ifadələri ilə müəssisələrindəki müsbət dəyişikliyi ifadə etmişdirlər.

Orta ixtisas və ali təhsil müəssisələrinin məsul əməkdaşları məsafədən təhsil təcrübəsinə müxtəlif münasibət bildirmişdir. İştirakçıların münasibətləri Cədvəl 7-də öz əksini tapmışdır.

Cədvəl 7. Məsafədən təhsil təcrübəsinə münasibət

| Mövzu | Kodlanmış fikirlər | Sayı | % |
|---|---|---|---|
| | Hibrid | 7 | 33 |

| | | | |
|---|---|---|---|
| Məsafədən təhsilin davam etməsin münasibət | Bəli | 6 | 29 |
| | Xeyr | 6 | 29 |
| | Xüsusi durumlar üçün nəzərdə tutula bilər (qiyabi təhsil, xüsusi fənlər və s.) | 2 | 9 |
| | Cəmi | | 100 |

Cədvəl 7-dən göründüyü kimi 6 təhsil müəssisəsi  məsafədən təhsil təcrübəsinin davam etməsinin, 6 təhsil müəssisəsi isə davam etməməsinin tərəfdarıdır. 7 təhsil müəssisə təhsilin hibrid formada həyata keçirilməsini məqsədəuyğun hesab edir. 2 təhsil müəssisəsi isə yalnız xüsusi durumlarda məsafədən təhsilə müraciət olunmasını dəstəkləyir.

Bu sualla bağlı respondentlərin fərqli fikirlərinin olduğu "*Distant təhsil ənənəvi təhsilə nisbətən mənfi cəhətləri daha çoxdur. Müsbətləri də var, başqalarını bilmirəm amma mən elə hesab edirəm ki, mənfi cəhətləri daha çoxdur. Ənənəvi təhsil daha üstündür*" (R3),  "*Müəyyən dərslərin tamamilə distant, onlayn olması və yaxud müəyyən dərslərin yox dərsin müəyyən hissəsinin, məsələn 1-2 dərs onlayn keçirilsin, o dərsin praktik hissəsində tələbələr universitetə gəlsinlər. Memarlıq maketləri, rəsm çəkmə dərsi, qurğuların zəlzələyə davamlılığını ölçməsi, mexanikadır, kimyanın müəyyən prosesləridir. Bu dərslər üçün tələbələr mütləq universitetə gəlsinlər, mühiti görsünlər, o laboratoriyaların, avadanlıqların tətbiqi ilə real tanış olsunlar. Hibrid olmasının tərəfdarıyam, və düşünürəm ki, ən ideal variant da budur*" (R5), "*Əlbəttə ki, post pandemiya dövründə bu təcrübəni davam etdirməyin və pandemiya olmasa belə distant təhsilin olmasının universitet olaraq tərəfdarıyıq. Məsafədən təhsilin də qaydaları müəyyənləşsə daha yaxşı olardı. Mənə elə gəlir, bəzi problemləri, ümumi qaydalar müəyyən olmadığına görə, hər universitet özünə uyğun həll edir*" (R18) kimi ifadələrindən də görünür.

İstər ali təhsil, istərsə də orta ixtisas müəssisələrinin məsul əməkdaşları məsafədən təhsil dövründə təhsil müəssisələrində qurulan sistem və bu sistemin faydalılığı, funksionallığı və s. ilə əlaqəli tələbələrdən müxtəlif formada rəy aldıqlarını bildirmişdir. Müvafiq mövzu ilə əlaqəli iştirakçıların fikirləri Cədvəl 8-də öz əksini tapmışdır.

Cədvəl 8. Sistemlə bağlı tələbələrin rəyləri

| Mövzu | Kodlanmış fikirlər | Sayı | % |
|---|---|---|---|
| Tələbələrlə sorğu | Sorğular keçirilmişdir | 11 | 52 |
| | Şifahi rəylər alınmışdır | 9 | 43 |
| | Sorğu keçirilməmiş, rəy alınmamışdır | 1 | 5 |
| | Cəmi | | 100 |

Cədvəl 8-dən göründüyü kimi məsafədən təhsillə bağlı tələbələrin rəylərinin öyrənilməsi üçün 11 təhsil müəssisəsi sorğu həyata keçirmişdir, 9 müəssisə tələbələrdən  şifahi rəy almışdır, 1 müəssisə isə  tələbələrin rəylərinin öyrənilməsi üçün heç bir fəaliyyət həyata keçirməmişdir. R5 "*Bəli, biz sonuncu sorğunu fevralda keçirmişik, tələbələrin istəkləri, nə bilim texniki imkanları, dərsdən nə qədər razıdırlar, müəllim nə qədər aktiv istifadə edir, bu sorğu var nəticələri də var bizdə. Böyük hissəsi razıdır*",  R7 "*Bizim daima görüşlərimiz olur müəllimlərlə, tələbələrlə. Tələbələr ilə görüşümüz olub. Özümüz belə deyim hansı formada etmişdik, tək-tək qruplarla görüşüb, şifahi formada görüşlər təşkil etmişik*" deyərək cavablarını əsaslandırmışdırlar.

Məsafədən təhsil dövründə təhsil müəssisələrində qurulan sistem və bu sistemin faydalılığı, funksionallığı və s. ilə əlaqəli rəylərin məzmunu Cədvəl 9-da qeyd olunmuşdur.

Cədvəl 9. Rəylərin məzmunu

| Mövzu | Kodlanmış fikirlər | Sayı | % |
|---|---|---|---|
| Tələbələrin rəyləri | Müsbət rəylər | 15 | 68 |
| | Neytral münasibət | 3 | 14 |
| | İnternetlə, işıqla bağlı iradlar | 2 | 9 |
| | Teams proqramı ilə bağlı mənfi rəylər | 2 | 9 |
| | Cəmi | | 100 |

Cədvəl 9-dan də göründüyü kimi tələbələrin təhsil müəssisələrinin məsafədən təhsilin təşkili fəaliyyətləri ilə bağlı rəyləri 15 təhsil müəssisəsində müsbət, 3 təhsil müəssisəsində neytral olmuşdur. 2 təhsil müəssisəsində tələbələr əsasən internetlə bağlı, digər 2 təhsil müəssisəsində isə "Teams" proqramı ilə bağlı irad və rəylərini bildirmişlər.

Tələbələrin rəyləri ilə bağlı ümumi vəziyyəti R6 "*Keçirilən dərslər, Teams platformasından istifadə, tələbələrin rahatlığı, dərslərin təşkili, müəllimlərin onlayn necə yüksək dərs deməklərini istədik bilək. Sorğumuz çox yaxşı qarşılandı. 75%-dən çox müsbət rəy aldıq*", R9 "*Tələbələrin hamısı demir ki yaxşıdır. Təqribən 60% yaxşı, 40% pisdir deyir*", R10 "*Tələbələrin böyük əksəriyyəti müsbət qiymətləndirir. Mənfi qiymətləndirənlər də var*" deyərək ifadə etmişlər.

İştirakçıların təmsil etdikləri təhsil müəssisələrində tələbə nailiyyətinin qiymətləndirilməsi ilə bağlı qarşılaşdıqları situasiyalar "müsbət" və "mənfi" təcrübələr olaraq iki qrupda təsnif edilmişdir. Müvafiq fikirlər Cədvəl 10-da öz əksini tapmışdır.

Cədvəl 10. Tələbə nailiyyətinin qiymətləndirilməsi ilə bağlı şərhlər

| Mövzu | Kodlanmış fikirlər | Sayı | % |
|---|---|---|---|
| Tələbə nailiyyətinin qiymətləndirilməsində müsbət təcrübələr | Şifahi nitqin inkişaf etməsi | 2 | 23 |
| | İmtahanın özündə öyrənmə imkanı | 1 | 11 |
| | Reallığa uyğun nəticələr (şifahi imtahanlar ) | 1 | 11 |
| | Apellyasiyaların azalması (şifahi imtahanlar ) | 1 | 11 |
| | Tələbənin imtahanda özünü rahat hiss etməsi | 1 | 11 |
| | Yeni şeylərin təcrübədən keçirilməsi | 1 | 11 |
| | Məkan anlayışının olmaması | 1 | 11 |
| | Tələbələrin vaxtı effektiv idarə etmə bacarıqlarını qazanması | 1 | 11 |
| | Cəmi | | 100 |
| Tələbə nailiyyətinin qiymətləndirilməsində mənfi təcrübələr | Kənar vasitələrdən istifadə halları | 16 | 58 |
| | İmtahanların çox vaxt aparması (şifahi imtahanlar) | 1 | 3,5 |
| | Texniki problemlər | 1 | 3,5 |
| | Keyfiyyətin azalması | 1 | 3,5 |
| | İmtahana qədərki dövrdə tələbənin tam tanına bilməməsi | 1 | 3,5 |
| | Cavabların bəzən gec göndərilməsi (yazılı imtahanlar) | 1 | 3,5 |
| | Tələbələrin tədqiqat bacarıqlarının aşağı düşməsi (sərbəst işlərin sayının azalması səbəbindən) | 1 | 3,5 |
| | Müəllimlərin sistemə adaptasiya ola bilməməsi | 1 | 3,5 |

| | | | |
|---|---|---|---|
| | Əzbərçilik sisteminin yaranması | 1 | 3,5 |
| | Qiymətləndirmələrin obyektiv olmaması | 1 | 3,5 |
| | Vaxtın az olması | 1 | 3,5 |
| | İnternet problemi | 1 | 3,5 |
| | İmtahanlara uzaqdan nəzarət edilə bilməməsi | 1 | 3,5 |
| | **Cəmi** | | **100** |

Cədvəldən də göründüyü kimi müəssisələrin müsbət təcrübələri fərqli olmuşdur. Ancaq mənfi təcrübələrdə isə demək olar ki, bütün müəssisələr əsasən bir problemlə qarşılaşmışdırlar. Kənar vasitələrdən istifadə hallarının bütün müəssisələrin şikayət etdikləri bir durum olduğu müşahidə edilmişdir. R10 "*İmtahan zamanı tələbə tam hazırlaşmır, tənbəllik edir, tam gücü ilə hazırlaşmır, onlayn rejimdən, pandemiyadan süni istifadə edir*", R20 "*İmtahan necə və hansı şəraitdə verilir, bilinmir. Tələbənin bu prosesdə kənardan kömək alıb-almadığını görə bilmirik*", R21 "*uzaqdan nəzarət edə bilmirik* " deyərək yaşadıqları mənfi təcrübəni ifadə etməyə çalışmışlar.

## TÖVSİYƏLƏR

2020-2021-ci tədris ilinin ikinci yarımilində ümumilikdə 21 orta ixtisas və ali təhsil müəssissəsinin məsafədən təhsilin təşkilindən məsul olan əməkdaşları ilə keçirilən müsahibələrdən əldə edilən məlumatların təhlilindən ortaya çıxan nəticələr əsas götürülərək tövsiyələr hazırlanmış və bu başlıqda təqdim olunmuşdur.

Araşdırma nəticəsində məlum olmuşdur ki, bəzi təhsil müəssisələri pandemiyanın gətirmiş olduğu çətinlikləri fürsətə çevirə bilmişdir. Belə ki, bəzi təhsil müəssisələrində məsafədən tədrisin təşkili nəticəsində elektron resurs bazası yaranmışdır. Müvafiq ixtisasların tədris proqramları üzrə dərslərin materialları (elektron mühazirələr, dərs vəsaitləri və s.) artıq paket halına salınmışdır və istənilən zaman tələbələrin istifadəsinə verilə bilər. Bu cür elektron resurs bazası təhsil müəssisələrinin müxtəlif fövqəltəbii vəziyyətlərə hazır olmalarına və distant təlim bazarına daxil olmaqlarına şərait yaradacaqdır. Bu mənada digər təhsil müəssisələrinin də məsafədən təhsil zamanı istifadə edilmiş elektron materiallarının, dərslərin qeydə alınmış video yazılarının və s. hesabına elektron resurs bazası yaratmaları təbliğ və təşviq edilməlidir.

Tədqiqatın nəticələrini təhlil etdikdə təhsil müəssisələrinin professor-müəllim heyətinə demək olar ki, müəllimlərin texniki və rəqəmsal bacarıqlarının artırılması istiqamətində təlimlər keçdiyi və ya digər alətlərlə dəstək təmin etdiyi görünür. Yalnız 3 müəssisə təhsil proqramlarının, sillabusların məsafədən təhsilə uyğunlaşdırılması və məzmunun, mühazirə və seminar dərslərinin təşkili qaydalarının dəyişdirilməsi istiqamətində tədbirlər həyata keçirmişdir. Təhsil müəssisələrində tədris proqramlarının, tədris olunan mövzuların və s. məsafədən təhsilə uyğunlaşdırılması məsafədən təhsilin keyfiyyətli şəkildə təşkili üçün atılması lazım olan vacib addımlardandır.

Təhsil müəssisələrini təmsil edən nümayəndələrlə həyata keçirirmiş müsahibələrdə məsafədən tədris zamanı bir sıra məsələlərdə (seminar dərslərinin, imtahanların keçirilmə forması və s.) necə bir yol izlənməsi ilə bağlı vahid qaydaların olmadığı və belə durumlarda təhsil müəssisələrinin hər birinin fərqli mexanizmlər tətbiq etdikləri aydın olmuşdur. Təhsil müəssisələrinin qərarvermə prosesini asanlaşdırmaq və ziddiyyətli durumların ortaya çıxmasının qarşısının almaq üçün məsafədən

(distant) təhsilin hüquqi bazasının hazırlanması və hər bir mövzuda konkret qaydaların müəyyənləşdirilməsi məqsədəuyğun hesab olunur.

Təhsil müəssisələrinin nümayəndələrinin bir qismi məsafədən təhsil zamanı dərsləri və imtahan proseslərini ənənəvi təhsillə müqayisədə daha az zaman sərf edərək dərs prosesinə maneə olmadan müşahidə edə bildiklərini və ehtiyac olduqda video yazıları təkrar izləyə bildiklərini qeyd etmişdirlər. Məsafədən təhsilin bu imkanları barədə digər təhsil müəssisələrinin də məlumatlandırılması və təhsil müəssisələrində monitorinq sistemlərinin qurulmasına dəstək verilməsi məqsədəuyğun hesab olunur.

Təhsil Nazirliyi tərəfindən ölkədəki bütün təhsil müəssisələri üzrə professor-müəllim heyətinin məsafədən tədrisin təşkili ilə bağlı təlim ehtiyaclarının öyrənilməsi və müvafiq istiqamətlərdə (İKT, yeni motivasiya alətləri və s.) təlimlərin təşkil olunması məsafədən tədrisin effektiv təşkili üçün zəruri addımlardan biridir.

Bəzi təhsil müəssisələri ucqar regionlarda yaşayan və həssas qruplara aid olan tələbələrinin əksəriyyətinin pandemiya dövründə dərsə qoşula bilmədiklərini vurğulamışdır. Bu vəziyyət təhsilalanların təhsil hüququnun pozulması kimi qiymətləndirilə bilər. Bu mənada müvafiq qrupa daxil olan tələbələrin nəzarətdə saxlanılması və onların internetə çıxışlarına mane olan faktorların aradan qaldırılması həll olunması vacib məsələlərdən biridir.

Son olaraq qeyd olunmalıdır ki, təhsil prosesindəki maraqlı tərəflərin düşüncə tərzinin "məsafədən təhsil artıq fövqəltəbii durumlarda tətbiq olunan bir üsul deyil, bu bir ehtiyac, bir təhsil forması və ən əsası günümüzün reallığıdır" yönündə dəyişdirilməsi və bu istiqamətdə maarifləndirici tədbirlərin həyata keçirilməsi zəruridir.

## İSTİNAD OLUNMUŞ MƏNBƏLƏRİN SİYAHISI


- NK (2020). Təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi mart ayının 3-dən 9-dək dayandırıldı. https://nk.gov.az/az/article/691/ Əldə edilmə tarixi: 15.07.2021

- TN (2020a). Azərbaycan təhsilinin pandemiya sınağı. https://edu.gov.az/az/page/9/18449 Əldə edilmə tarixi: 19.07.2021

- UNESCO (2020a). COVID-19 impact on Education. https://en.unesco.org/COVID-19/educationresponse Əldə edilmə tarixi: 20.07.2021

## ƏLAVƏ 1. MÜSAHİBƏ FORMASI

### Müsahibə forması

### I hissə

Demoqrafik məlumatlar:

- Cinsiyyət
- Təmsil etdiyi təhsil müəssisəsi
- Cari vəzifədəki təcrübə
- Məsafədən təhsil prosesi zamanı əsas öhdəlik

### II hissə

Mövzu ilə əlaqəli iştirakçılara ünvanlanan suallar:

- Məsafədən təhsil prosesini təmsil etdiyiniz qurumun timsalında necə qiymətləndirirsiniz?
- Pandemiya başladığı zaman qurumunuzun məsafədən təhsilə hazırlıq səviyyəsi ilə 2020-2021-ci tədris ilindəki hazırlıq səviyyəsini müqayisə etsəniz, fərqi necə qiymətləndirərsiniz?
- Qurumunuzda yaratmış olduğunuz məsafədən təhsil sisteminin faydalılığı, funksionallığı və ya çatışmazlıqları haqqında tələbələrinizin geri dönüşü necə oldu?
- Məsafədən təhsil prosesində tələbə nailiyyətinin qiymətləndirmə mexanizmini necə qurdunuz?
- Ümumilikdə məsafədən təhsil prosesində tələbələrin öyrənmə prosesinin effektivliyini necə qiymətləndirirsiniz?